# Bakı-2016 Yay Olimpiya Oyunları büdcəsi: Rəqiblərlə müqayisə

*Fariz Hüseynov*
Memfis Universitetinin (ABŞ) maliyyə ixtisası üzrə doktorantı
fhuseynv@memphis.edu

Cəmiyyətdə gedən proseslərin, xüsusilə büdcə vəsaitlərinin istifadə olunması haqqında məlumatların şəffaf şəkildə ictimaiyyətə açıqlanması demokratik və sağlam iqtisadi inkişaf üçün çox əhəmiyyətlidir. Bu cəhətdən dövlət büdcəsindən maliyyələşən işlərin şəffaf olması labüd məsələdir. Məlumdur ki, Azərbaycan Respublikası Prezidentinin 26 Sentyabr 2007-ci il tarixli sərəncamı ilə 2016 Yay Olimpiya Oyunlarının Bakıda keçirilməsi üçün Təşkilat Komitəsi yaradılmışdır. Beynəlxalq Olimpiya Komitəsi (BOK) 2008-ci ilin yanvar ayında "Bakı-2016" layihəsinin proqram və büdcə paketini qəbul etmişdir. Habelə, 2001-ci ildən etibarən ölkənin müxtəlif bölgələrində onlarla çoxməqsədli olimpiya kompleksləri inşa olunmuşdur. Bu olimpiya kompleksləri, 2016 Yay Olimpiya Oyunlarına gedən yolun bir hissəsi olaraq görülür. Buna paralel olaraq, Bakı şəhərinin Olimpiya Oyunları üçün hazırladığı plan, maliyyə mənbələri və vəsaitlərin hara xərclənəcəyi ilə bağlı suallar yaranır. Yazımızda 2016-cı il Yay Olimpiya Oyunları üçün iddianamə paketini irəli sürən digər 6 şəhərlə birlikdə Bakı-2016-nın təklif paketini, xüsusən, maliyyə və büdcə baxımından təhlil edərək bu suallara aydınlıq gətirməyə çalışacağıq[1].

Aşağıdakı cədvəldə Bakı-2016 Təşkilat Komitəsinin büdcəsi göstərilmişdir. İki mərhələdən ibarət olan prosesdə ilk mərhələdə ən çox marketinq və ictimaiyyətlə əlaqələr sahəsinə təxminən 6.2 milyon dollar xərc çəkilmişdir. Namizədliyin təsdiqindən sonra isə planlaşdırma və təqdimata təqribən 22 milyon dollar xərc çəkiləcək. Bu dövrdə əsas hissəni yenə marketinq və ictimaiyyətlə əlaqələr sahəsi tutacaq. İlk mərhələdə xərclərin 85%-ni Azərbaycan dövləti, qalanını isə ayrı-ayrı dövlət orqanları öz üzərinə götürsə də, ikinci mərhələdə bu rəqəmlər 65% və 25% faiz olacaq, qalan məbləğ (10%) özəl şirkətlər tərəfindən ödəniləcək.

| **Fəalilyyət növü** | **I mərhələ (Sənədlərin hazırlanması, min USD)** | **II mərhələ (Namizədlik, min USD)** | **Yekun** |
|---|---:|---:|---:|
| Baş plan və təhlil | 1,594 | 4,650 | **6,244** |
| İddianamənin hazırlanması | 1,300 | 2,600 | **3,900** |
| Marketinq və ictimaiyyətlə əlaqələr | 2,765 | 11,450 | **14,215** |
| İdarə məsrəfləri | 165 | 1,970 | **2,135** |
| BOK xərcləri | 150 | 500 | **650** |
| Əlavə ehtiyatlar | 200 | 500 | **700** |
| **Yekun** | **6,174** | **21,670** | **27,844** |

Aşağıdakı cədvəldə isə 2016 Yay Olimpiya Oyunları üçün namizədliyi qəbul edilmiş bütün şəhərlərin hazırlıq büdcələri göstərilmişdir. Bakı-2016 Təşkilat Komitəsinin planlaşdırdığı büdcə digər namizədlər arasında Praqa şəhəri ilə birlikdə ən az həcmli büdcədir. Ən çox maliyyə vəsaiti isə Çikaqo şəhəri tərəfindən nəzərdə tutulmuşdur. Büdcənin çox olmağı həm müsbət, həm mənfi təsir göstərə bilər. Müsbət cəhət odur ki, daha çox maliyyə vəsaitinin əldə edildiyini göstərir. Eyni işlərin daha baha başa gəlmə ehtimalı isə mənfi təsir sayıla bilər. Yəni vəsaitlərin səmərəli istifadəsinə nəzər yetirilərsə, BOK daha az büdcə ilə daha çox iş prinsipinə üstünlük verə bilər.

[1] İddianamə paketləri (Mini Bid-Book) www.gamesbids.com internet ünvanından və hər iddiaçı üçün hazırlanmış internet saytlardan əldə edilmişdir.

| Namizəd şəhər | I mərhələ (Sənəd hazırlığı, mln USD) | II mərhələ (Namizədlik, mln USD) | Yekun (mln USD) |
|---|---|---|---|
| BAKI | 6.2 | 21.7 | **27.8** |
| Çikaqo | 16.9 | 32.4 | **49.3** |
| Doha | 11 | 37 | **48** |
| Madrid | 10.7 | 29.7 | **40.4** |
| Praqa | 7.7 | 14.6 | **22.3** |
| Rio-de-Janeyro | 7 | 35 | **42** |
| Tokio | 19 | 29 | **48** |

Oyunlardan əldə ediləcək gəlirlər qismini müqaisə etmək üçün aşağıdakı cədvələ baxaq. Əsas gəlir növləri kimi sponsorluq və bilet satışları göstərilmişdir. Ən çox gəlir əldə etməyi planlaşdıran şəhərlər Çikaqo, Madrid və Tokio şəhərləridir. Bu siyahıda Bakı-2016 (930 milyon USD) Praqadan sonra beşinci yerdədir. Doha və Rio-de-Janeyro şəhərləri Bakıdan daha az gəlir əldə etməyi planlaşdırır. Bakı-2016-nın gəlirlər hissəsində paralimpiya oyunlarından gələcək gəlirlərin nəzərə alınıb-alınmadığını deyə bilmirik. Maraqlıdır ki, bilet satışlarından əldə ediləcək gəlirlərin proqnozu şəhərlər arasında çox dəyişir. Bu həm idman komplekslərinin həcmi, həm də iştirakçı sayına görə dəyişə bilər.

| Şəhər/Gəlir növü (mln USD) | Yerli sponsorluq | Bilet satışları | Lisenziya | Digər | Yekun |
|---|---|---|---|---|---|
| Bakı | 400 | 330 | 50 | 150 | **930** |
| Çikaqo | 1,760 | 705 | 170 | 365[2] | **2,500** |
| Doha | 450 | 259 | 15 | 60 | **784** |
| Madrid | 430 | 506 | 163 | 512[3] | **1,611** |
| Praqa | 380 | 312 | 100 | 177 | **969** |
| Rio-De-Janeyro | 370 | 50 | 290 | 40 | **750** |
| Tokio | 750 | 648 | 81 | 78 | **1,557** |

Sadəcə planlama və idarəetmənin göstərildiyi büdcə xərclərinin 2016 Olimpiya Oyunlarından əldə ediləcək gəlirlərlə müqaisədə çox az olduğu görünür. Şübhəsiz, daha geniş həcmdə maliyyə vəsaiti idman qurğularının tikintisinə istifadə ediləcəkdir. Hər bir şəhərin mövcud idman kompleksləri və infrastrukturu bu xərclərin həcmini müəyyən edir. İnfrastruktur və idman kompleksləri cəhətindən nisbətən zəif olan Bakı şəhərinin daha çox tikinti-inşaat xərcləri olacağını proqnozlaşdırmaq mümkündür. Bilavasitə hər iddiaçı şəhərdə olimpiya oyunlarının keçiriləcəyi komplekslərin inşası ilə bağlı verilən məlumatlara nəzər salaq.

Bakı-2016 öz proqramı çərçivəsində yarış iştirakcılarının və media nümayəndələrinin istifadə edəcəyi Olimpiya Şəhərciyinin inşasını planlaşdırır. Şəhərciyə Olimpik Kənd, Beynəlxalq Mətbuat Mərkəzi daxil olacaq. Bu layihələr üçün maliyyə vəsaitini dövlət və özəl sektoru təmsil edən qurumların təsis edəcəyi ortaq şirkət təmin edəcək. Olimpik Kənd Bakı şəhərinin cənub-şərqində dəniz kənarında 77 ha ərazidə yerləşəcək və oyun iştirakçılarını 16,500 yerlik yaşayış binaları ilə təmin edəcək. Olimpik Kənd daha sonra yaşayış məqsədli istifadəyə veriləcək. Bu kompleksin tikintisinə nə qədər maliyyə vəsaiti xərclənəcəyi barədə

---

[2] Buraya paralimpiya oyunlarından əldə ediləcək gəlirlər də daxil edilmişdir.
[3] Buraya rəsmi qurumların sponsorluğu, mal və xidmət təminatı, marka və xüsusi qəpiklərin buraxılışından əldə ediləcək gəlirlər də əlavə edilmişdir.

proqnoz verilməyib. Daha geniş məlumatı idman oyunlarının keçiriləcəyi mərkəzlərin tikintisi üçün tapmaq olar. Aşağıdakı cədvəldə bu məlumatlar göstərilmişdir.

2016 Olimpiya Oyunlarında istifadə ediləcək komplekslərdən sadəcə Heydər Əliyev adına İdman Kompleksi tam tikilmiş vəziyyətdədir. Daha beş idman kompeksi və iki stadionda təxminən 180 milyon dollarlıq təmir-inşaat işləri görüləcəkdir. Bu fəaliyyətlərin böyük hissəsi 2014-2015ci illərdə və dövlət hesabına həyata keçiriləcəkdir. Güman etmək olar ki, bu tikililər ölkənin namizədliyinin qəbul edilməsindən sonra inşa ediləcək. Yeni tikiləcək komplekslər daimi və müvəqqəti olaraq ikiyə ayrılır. Daimi tikililərə iki Olimpiya stadionu, ondan cox kompleks, Mingəçevir və Gəncə şəhərlərində olmaqla, iki stadion daxildir. Bu obyektlərin tikilməsi üçün təxminən 730 milyon dollar vəsait cəlb olunacaqdır. Sadəcə üstü açıq Olimpiya stadionuna 255 milyon dollar xərclənəcək. Bu komplekslərin böyük hissəsinin 2010-cu ildən sonra tikilməsi planlaşdırılır. 2014-cü ildən sonra tikiləcək müvəqqəti obyektlərə isə 106 milyon dollar xərclənəcək. Ümumi götürdükdə isə, bu idman qurğularının təmir və inşaatı üçün 1.16 milyard dollar xərclənəcək ki, bu miqdarın demək olar ki, hamısı dövlət tərəfindən maliyyələşəcək.

2016 Yay Olimpiya Oyunlarının keçirilməsi üçün idman qurğularından əlavə infrastrukturun inkisafı da vacibdir. Bu baxımdan avtomobil yollarının və metro xətlərinin tikintisini vurğulamaq olar. Aşağıdakı cədvəldə isə Olimpiya Oyunları ilə birbaşa və ya dolayı əlaqədar olan aşağıdakı avtomobil dəmir yollarının və metro xətlərinin tikintisi və ya genişləndirilməsi nəzərdə tutulur. Ümumilikdə, 1 milyard dollar həcmində 60 km-lik avtomobil yolu və nəqliyyat qovşaqları, 48 milyon

| **Kompleks** | **Həcm (yer)** | **Əlavə tikintinin tarixi** | **Əlavə tikintiyə xərc (mln USD)** | **Vəsaitin mənbəyi** |
|---|---|---|---|---|
| **Tam və ya yarımtikili komplekslər** | | | | |
| Heydər Əliyev adına idman Kompleksi | 8,000 | - | - | - |
| Əl Oyunları Sarayı | 6,000 | 2009 | 14.6 | Dövlət |
| Binə Atçılıq | 20,000 | 2014-2015 | 32.1 | Ortaq |
| Dövlət Atıcılıq | 6,000 | 2014-2015 | 13.3 | Dövlət |
| Ekselsior Xokkey | 10,000 | 2013-2015 | 24.8 | Dövlət |
| T. Bəhramov adına stadion | 30,000 | 2014-2015 | 52.8 | Dövlət |
| Şəfa Stadionu | 22,000 | 2014-2015 | 38.7 | Dövlət |
| | | **YEKUN** | **176.3** | |
| **Tikiləcək komplekslər (daimi)** | | | | |
| Olimpiya Stadionu | 65,000 | 2013-2015 | 254.2 | Dövlət |
| Olimpiya Stadionu (ustu örtülü) | 10,000 | 2014-2015 | 43.1 | Dövlət |
| Milli Gimnastika | 18,000 | 2010-2012 | 77.6 | Dövlət |
| Olimpik Park Tennis | 20,000 | 2014-2015 | 31.3 | Dövlət |
| Olimpik Velodrom | 5,000 | 2012-2014 | 28.2 | Dövlət |
| Milli Su Oyunları | 12,000 | 2010-2012 | 60.7 | Dövlət |
| Sutopu salonu | 5,000 | 2010-2012 | 17.3 | Dövlət |
| Sərgi salonu (1-4) | 20,000 | 2009-2010 | 57.6 | Dövlət |
| Milli Avarçəkmə Mərkəzi | 12,000 | 2009-2011 | 53.6 | Dövlət |
| H. Əliyev adına Mədəniyyət Mərkəzi | 5,000 | 2008-2010 | 21 | Dövlət |
| Mingəçevir Stadionu | 20,000 | 2012-2015 | 39.1 | Dövlət |

| | | | | |
|---|---|---|---|---|
| Gəncə Stadionu | 25,000 | 2012-2015 | 48.9 | Dövlət |
| | | **YEKUN** | **732.6** | |
| **Tikiləcək (müvəqqəti)** | | | | |
| Voleybol Sahəsi | 15,000 | 2014-2015 | 51.8 | Dövlət |
| Olimpiya Düzü | 5,000 | 2015 | 4.9 | Dövlət |
| Bulvar Sahil Mərkəzi | 12,000 | 2016 | 10.4 | Dövlət |
| Sahilkənarı kompleks | 5,000 | 2014-2016 | 8.1 | Dövlət |
| Bulvar BMX-Cığırı | 5,000 | 2016 | 10.4 | Dövlət |
| Dövlət Sarayı Plaza | 12,000 | 2015 | 15.5 | Dövlət |
| Bakı Yaxt Klubu | 250 | 2016 | 0.5 | Ortaq |
| Dağ Velosiped Cığırı | 2,000 | 2016 | 4.1 | Dövlət |
| | | **YEKUN** | **105.7** | |
| | | **CƏMİ YEKUN** | **1,014.6** | |

dollarlıq dəmiryolunun təmiri və genişləndirilməsi nəzərdə tutulmuşdur. O cümlədən, 400 milyon dollarlıq vəsait şəhərkənarı dəmiryolu şəbəkəsinin genişləndirilməsinə və 300 milyon dollar isə Aeroport-Böyük Şor-Əzizbəyov yolunun tikilməsinə sərf ediləcək. H. Əliyev ad. Beynəlxalq Hava limanının yeni terminalının tikilməsinə 300 milyon dollar xərclənəcək. Əlbəttə, avtomobil yollarının tikintisinin nə qədər rentabelli olduğunu demək çətindir, bunu mütəxəssislərin rəyinə buraxırıq. Beləliklə, təqdim edilən plana görə, yeni tikiləcək avtomobil yollarına və metro xətlərinə, təxminən 2.5 milyard dollar və proqnozlaşdırılan nəqliyyat şəbəkəsinin qurulmasına 4 milyard dollara yaxın vəsait cəlb ediləcəkdir.

| Tikinti obyekti | Uzunluğu (km) | Əlavə tikintinin tarixi | Əlavə tikintiyə xərc (mln USD) | Vəsaitin mənbəyi |
|---|---|---|---|---|
| **Təmir ediləcək və ya genişlənəcək yollar** | | | | |
| Aeroport-Böyük Şor – Əzizbəyov | 13.6 | 2009 | 300 | Dövlət |
| Heydər Əliyev prospekti | 6 | 2009 | 70 | Dövlət |
| Babək prospekti | 9 | 2010 | 54 | Dövlət |
| Bakı Daxili Dairəvi yol | 15.8 | 2010 | 95 | Dövlət |
| Baki Şəhəri Dairəvi yol | 7 | 2010 | 65 | Dövlət |
| Salyan şossesi | 5.4 | 2010 | 26 | Dövlət |
| Neftçilər prospekti | 3.2 | 2010 | 60 | Dövlət |
| Şəhərkənarı Dəmiryolu şəbəkəsi | 48 | 2015 | 400 | Dövlət |
| H. Əliyev adına Hava limanı | - | 2010 | 300 | Dövlət |
| **YEKUN** | **108** | | **1,370** | |
| **Yeni tikiləcək yollar** | | | | |
| Bakı Dairəvi Yol II | 59 | 2009-2011 | 240 | Dövlət |
| Bakı Qərb I | 21.5 | 2009 | 53 | IFI |
| Balı Şəhəri Dairəvi Yol | 1.4 | 2015 | 69 | Dövlət |
| Böyük Şor keçidi | 11.3 | 2012 | 280 | Dövlət |
| İpək Yolu | 4.8 | 2014 | 60 | Dövlət |
| Bakı Daxili Dairəvi Yol (Əzizbəyov) | 0.6 | 2009 | 33 | Dövlət |
| Əzizbəyov-Suraxanı | 6 | 2012 | 50 | Dövlət |
| Zığ döngəsi-H.Əliyev Hava limanı | 18 | 2006-2008 | 145 | Dövlət |
| Bakı Dairəvi Yol III | 67 | 2009-2012 | 230 | Dövlət |
| **YEKUN** | **190** | | **1,160** | |

| | | | | |
|---|---|---|---|---|
| **Metro xətti və stansiyalar** | | | | |
| Suraxanı-Hava limanı Metro xətti | 11 | 2012-2015 | 218 | Dövlət |
| Bakı Soveti-Olimpik Park Metro xətti | 5 | 2011-2015 | 188 | Dövlət |
| Xətai-Həzi Aslanov Metro xətti | 9.3 | 2008-20014 | 465 | Dövlət |
| Memar Əcəmi-Əzizbəyov Metro xətti | 9.8 | 2006-2012 | 490 | Dövlət |
| **YEKUN** | **35.1** | | **1,361** | |
| | | | | |
| **CƏMİ YEKUN** | **333.1** | | **3,891** | |

Tikilməsi planlaşdırılan yol-nəqliyyat şəbəkəsinin birbaşa Olimpiya Oyunları ilə əlaqəli olduğunu demək olmaz. Nəzərdə tutulan avtomobil, dəmir yolları və metro xətlərinin bəzi hissəsi daha əvvəldən, həm Bakı Şəhər İcra Hakimiyyətinin, həm də Nəqliyyat Nazirliyinin mətbuata verdiyi açıqlamalarda səsləndirilmişdir. Əlbəttə, infrastrukturun yaxşılaşacağını vəd edən inşaat planları Bakı-2016 xəyalının gərçəkləşməsinə ancaq müsbət təsir edər. Vəsaitlərin nə qədər səmərəli istifadə ediləcəyi isə qaranlıq qalır. Ümumiyyətlə, son illərdə paytaxtda tikilən nəqliyyat qovşaqlarının və körpülərin paytaxtın nəqliyyat yükünü birmənalı şəkildə yüngülləşdirdiyini demək olmaz. Yeni tikililərin bu baxımdan daha səmərli və daha keyfiyyətli olacağına ümid edirik.

Beləliklə, 2001-ci ildən etibarən ölkənin müxtəlif bölgələrində tikilən olimpiya komplekslərinin demək olar ki, heç biri yay olimpiya oyunlarının keçirilməsi üçün nəzərdə tutulmamışdır. Bu komplekslər öz töhfələrini ancaq ölkədə idmançı yetişdirməyə verə bilər. Bu komplekslərin bəziləri (məs. Quba) beynəlxalq yarışlar keçirsə də, bəzilərindən (məs. Masallı) yerli idmançıların belə istifadə etdiyi şübhəlidir[4]. Bölgələrdə olimpiya komplekslərinin tikilməsi zamanı ölkəmizdə 2016 Yay Olimpiya oyunlarının keçirilməsinə səy göstərildiyi tez-tez vurğulansa da, bu komplekslərin həmin yarışların keçirilməsinə nə qədər müsbət təsiri olacağı şübhəlidir.

İndi isə digər namizəd şəhərlərin təqdim etdikləri iddianamələrdə infrastrukturun gücləndirilməsi ilə bağlı proqnozlaşdırılan fəaliyyətlərə və onların smeta dəyərinə diqqət edək. Aşağıdakı cədvəldə hər bir şəhərdə tikiləcək komplesə aid həcm (yer) və smeta dəyəri (mln USD) göstərilmişdir.

| **Kompleks\ Şəhər** | | **Çıkaqo** | **Doha** | **Madrid** | **Praqa** | **Rio-de-Janeyro** | **Tokio** |
|---|---|---|---|---|---|---|---|
| Mövcud idman qurğusuna əlavə | | | | | | | |
| Stadion | Yer | | 70,000 | 113,000 | 130,000 | 60,000 | |
| | Dəyər | | 240 | 337.5 | 369 | 51.59 | |
| Digər | Yer | | 12,000 | 71,700 | 66,000 | 43,000 | 74,000 |
| | Dəyər | | 40 | 533 | 297 | 50.62 | 412 |
| Yeni tikiləcək (daimi) | | | | | | | |
| Olimpiya Stadionu | Yer | 80,000 | | | 80,000 | | 100,000 |
| | Dəyər | 385.9 | | | 426 | | 1,056 |
| Digər | Yer | 149,000 | 56,000 | 108,000 | 52,000 | 83,000 | 35,000 |

[4] http://www.rferl.org/featuresarticle/2008/3/93607379-e72c-4895-a40f-a28a1848920c.html

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Dəyər | 264.6 | 706 | 535.5 | 376 | 375.52 | 567 |
| Yeni tikiləcək (müvəqqəti) | | | | | | | |
| Olimpiya Parkı | Yer | 8,000 | | | | | |
| | Dəyər | 8.2 | | | | | |
| Digər | Yer | 85,000 | 32,000 | 13,000 | 30,000 | 18,500 | 34,500 |
| | Dəyər | 111.7 | 80 | 16.75 | 98 | 29.4 | 107 |
| | | | | | | | |
| **YEKUN** | **Dəyər** | **770.4** | **1,066** | **1,423** | **1,566** | **507.1** | **2,142** |

Namizəd şəhərlər içərisində idman qurğularına ən çox vəsait cəlb edəcək olan şəhərlər Tokio, Praqa və Madriddir. Doha şəhərində təxminən Bakı-2016 ilə eyni miqdarda vəsait nəzərdə tutulmuşdur. Ən az vəsait Rio-de-Janeyro və Çikaqo şəhərlərində nəzərdə tutulmuşdur ki, bu onların mövcud idman qurğularının sayının çox olması ilə əlaqələndirilə bilər. Bakı-2016-dan fərqli olaraq, digər şəhərlərin çoxunda qurğuların tikilməsinə sərf ediləcək maliyyə vəsaiti, əsasən, özəl sektor tərəfindən təmin ediləcək. İdman qurğularının həcmi və smeta dəyəri müqayisə edildikdə, Bakı-2016 üçün nəzərdə tutulan xərclər digər şəhərlərdən çox fərqlənmir. Ancaq nəzərə almaq lazımdır ki, olimpiya oyunları üçün tikilən qurğulara faktiki sərf edilən vəsait adətən smeta dəyərini ötür.

Son olaraq, digər namizədlərin şəhər infrastrukturunun inkişafı üçün təqdim etdikləri fəaliyyət planına nəzər salaq. İnfrastrukturun inkisafı üçün ən çox maliyyə vəsaiti Praqa, Doha və Tokioda nəzərdə tutulmuşdur. Bu şəhərlərdə, əsasən, yeni avtomobil yolları salınmasına geniş vəsait sərf ediləcək. Praqa və Çikaqo şəhərlərində mövcud yolların genişlənməsinə digərlərindən daha çox vəsait xərclənəcək. Metro xətlərinin və stansiyalarının təmirinə və sayının artırılmasına ən çox vəsait Doha, Madrid və Praqada nəzərdə tutulmuşdur. Praqa şəhərində, həmçinin, dəmiryolu xətlərinin uzunluğu və stansiyalarının sayı artırılacaq. Salınacaq yolların uzunluğunun nisbətən az olmasına baxmayaraq, Tokio şəhəri xərclənəcək vəsaitin çox olması ilə fərqlənir. Bakı-2016 təklifində nəzərdə tutulan infrastrukturun inkişafı üçün nəzərdə tutulan yatırımlar, sadəcə, Çikaqo və Rio-de-Janeyro şəhərlərindən daha çoxdur. Demək olar ki, bütün şəhərlərdə, xüsusilə yeni yollar dövlət tərəfindən maliyyələşərkən, Çikaqoda özəl sektor daha çox pay alacaqdır.

| **Fəaliyyət növü\Şəhər** | | **Çikaqo** | **Doha** | **Madrid** | **Praqa** | **Rio-de-Janeyro** | **Tokio** |
|---|---|---|---|---|---|---|---|
| Avtomobil yolu | Uzunluq | 40.82 | 121 | 103.45 | 314 | 50 | 34 |
| | Dəyər | 1,324 | 5,227 | 4,411 | 10,846 | 1,917 | 8,210 |
| Yolun genişləndirilməsi, qovşaq inşaatı | Uzunluq | 41 | 40 | | 559 | 14 | 18 |
| | Dəyər | 1,080 | 744 | | 2,763 | 81 | 870 |
| Dəmiryolu xətti/stansiyası | Uzunluq/st | | | 31.2 km/4 st. | | 6 st | |
| | Dəyər | | | 2,270 | | 148 | |
| Metro xətti/stansiya | Uzunluq/st | 1 st | 75 km | 36.5 km | 18 km | | 8.9 km |
| | Dəyər | 5 | 4,675 | 1,978 | 3,229 | | 70 |
| Tramvay | Uzunluq/st | | | | 9 | | |
| | Dəyər | | | | 275 | | |
| Digər | Dəyər | 310 | | 24 | | 485 | |
| | | | | | | | |
| **YEKUN** | **DƏYƏR** | **2,719** | **10,646** | **8,683** | **17,113** | **2,631** | **9,150** |

Ölkənin müxtəlif bölgələrində tikilən olimpiya kompleksləri üçün 2006-2008-ci illərdə büdcədən 92.6 milyon AZN ayrılmışdır[5]. Ancaq yazının əvvəlində qeyd etdiyimiz kimi, çoxlarına bölgələrdə tikilən olimpiya kompleksləri 2016 oyunlarına hazırlığın bir hissəsi olaraq görünsə də, oyunlar üçün onlardan istifadə edilməyəcəyi aydındır. Oyunlar üçün nəzərdə tutulan komplekslərin böyük hissəsinin 2010-cu ildən sonra tikilməsi planlaşdırılır ki, bu da namizədlik haqqı qazanılmasından asılı olaraq dəyişəcəkdir. 2016 Olimpiya Oyunlarının Bakı şəhərində keçirilməsi ölkəmizin tanıdılması və turist cəlb etməsi üçün çox əhəmiyyətlidir. Ancaq belə irimiqyaslı tədbirin keçirilməsi haqqının ilk dəfə yarışa iddiaçı olan şəhərə veriləcəyi qeyri-realdır. Şübhəsiz, bu proses şəhərimizin sakinlərinə və təşkilat komitəsinə müəyyən təcrübə qazandıracaq. Ümumiyyətlə, təkliflər paketini digər şəhərlərin təqdim etdiyi paketlərdən geri qalmadığını deyə bilərik. Bakı-2016 Təskilat Komitəsinin iddianamə paketinin hazırlanmasına peşəkar yanaşması BOK İdarə Heyəti üzvlərinin şəhərimizin iddiasına ciddi yanaşmasını təmin edəcəkdir.

Bakı-2016 Təşkilat komitəsi iki faktoru daha çox vurğulamaqla, 2016 Yay Olimpiya Oyunlarını keçirmə haqqını əldə etməyə yaxın ola bilər. İlk öncə qeyd etmək lazımdır ki, Bakı şəhərinə bu haqqın verilməsi həm digər keçmis SSRİ respublikalarının, həm də əhalisinin böyük əksəriyyətinin müsəlman olduğu bir ölkənin iqtisadi-sosial cəhətdən dünyaya inteqrasiyasını gücləndirəcəkdir. Bundan başqa, yüz illər boyu neft çıxarılması üçün istifadə edilən və müxtəlif ekoloji problemlərə məruz qalan ərazinin ekoloji cəhətdən təmizlənməsi və "yaşıl zona"ya çevrilməsinin həm ölkə, həm bölgə üçün əhəmiyyəti xüsusilə vurğulanmalıdır. İddianamə paketində müəyyən qədər qeyd edilən bu faktın daha çox qabardılması məqsədəuyğun olacaqdır. Əlbəttə, olimpiya oyunlarının keçirilməsi üçün sadəcə təşkilat komitəsinin fəaliyyəti kifayət deyil. Bu prosesdə ölkə əhalisi və ictimaiyyətin müxtəlif təbəqələri də iştirak etməlidir. Onların iştirakını təmin etmək üçün həm iddia paketi, həm də görüləcək işlər xalqa şəffaf şəkildə çatdırılmalıdır. Ümid edirik ki, yazımızın bu prosesə müsbət təsiri olacaq və oyunların keçirilməsi üçün lazım olan hazırlığa daha ciddi yanaşılacaq.

[5] http://www.erc-az.org/new/uploads/file/cedveller.pdf